# DÜNYA BELƏ DÜNYA İMİŞ...



*VAQİF YUSİFLİ,*
*filologiya elmləri doktoru*

**İbrahim Təbib Şərur rayonunun Dəmirçi kəndində dünyaya göz açmışdı. Bakıda Tibb institutunu bitirmişdi. Ali təhsil illərində görkəmli alimlərin diqqətini cəlb etmişdi, ona görə də institutu bitirdikdən sonra akademik, dünya şöhrətli cərrah M..A.Topçubpşovun cərrahiyyə kafedrasında uzun müddət cərrah-ordinator vəzifəsində çalışmışdı. Tibb elmləri namizədi idi. Təbabətə aid 14 kitabın müəllifiydi. Amma onun ürəyində bir poeziya işığı şölələnirdi. Sadəcə, uzun illər bunu biruzə vermədi. Amma yaşı yetmişi keçəndən sonra içindəki poeziya işığını sönməyə qoymadı, bir neçə şeir kitabı çap etdirdi: "Dünya belə dünyadı", "Təbriz bayatıları", "Rübailər", "Türk oğlu türkəm". İki akademik-Vasim Məmmədəliyev və Teymur Kərimli onun iki kitabına ön söz yazmışlar.**

Birinci kitabdan başlayaq. "Dünya belə dünyadı" . Bu, hər bəndi beş misradan ibarət lirik bir poemadır. Bütün bəndlərin sonu "dünyadı" rədifi ilə bitir. Ədəbiyyatımızda Dünya haqqında yüzlərlə, minlərlə şeirlər, poemalar yazılıb və hələ yazılacaq. Dünya sözünün mənaları çoxdu-o,Yer kürəsi, yer üzü, aləm mənasında daha çox işlənir. Dünya həm də müəyyən ictimai quruluş, insan cəmiyyəti, ictimai mühit də deməkdir. Dünya insanın mənəvi aləmi, hissləri, təsəvvürləri də deməkdir. Dünya bütün insanlar, adamlar, camaat məfhumlarını da ifadə edir.Bu dünya sözündən də çoxlu ifadələr yaranıb: "Dünyadan bixəbər", "dünyagörüşü", "dünyaya gəlmək", "dünyadan getmək", "dünyanı başına dar etmək", "dünyanın dərdi" və s. İbrahim Təbitin dünya deyib müraciət etdiyi isə yaşadığımız Yer üzüdür, ondan da böyük bir aləmdir, cahandır. Dünya yaranandan bəri insanlar ona üz tutmuşlar, həm sevinmişlər, həm də qüssə içində yaşamışlar. Onu çox mürəkkəb bir anlayış kimi dərk etmişlər. İbrahim Təbibin poemasında da insanın dünyaya bu ziddiyyətli baxışı əks olunub. Poema belə başlayır:

**Doğuluruq...yaşayırıq...ölürük...**
**Bu dünyanın axırı yox, bilirik!**
**Bu dünyanı iki yerə bölürük**
**Birisi qış, birisi yaz dünyadı**
**Gələni yox!..Gedəni az dünyadı.**

Sonrakı bəndlərdə də bu mühakimələr davam edir. "Fani dünya" anlayışı bizim klassik poeziyada çox işlənib. İnsanlar doğulur, yaşayır, ölür, dünya isə yerindədir.

**Əlləri var, qolları var dünyanın,**
**Dirəkləri, yalları var dünyanın,**
**Çox dolaşıq yolları var dünyanın,**
**Gedən gedər, gedən gəlməz dünyadı,**
**Olacağı heç kəs bilməz dünyadı.**

Bütün poema boyu dünyanın mənzərəsi rəsm olunur. Dünya "yandıran, yaxandı", dünya böyükdü, ucsuz-bucaqsızdı.

**Yeri göydən, göyü yerdən seçilməz,**
**Ərşin-kürsün uzunluğu ölçülməz,**
**Yeddi qatdı, heç açılmaz-bükülməz,**
**Neçə sütun, neçə qəndil dünyadı,**
**Yaranışı neçə min il dünyadı.**

Beləliklə, dünya haqqında indiyə qədər yaranmış təsəvvürlər şeir dililə ifadə edilir.

Dünya əzəmətli, həm də çox mürəkkəb bir obraza çevrilir.Lakin bu obrazın tam və dolğun məna qazanmasında İnsan amili mühüm rol oynayır. İnsanı dünyasız təsəvvür etmək mümkün deyil.

"Halalı harama qatıb bu dünya, mərdləri namərdə satıb bu dünya"-doğrudan da insan cəmiyyəti çox ziddiyyətlər içində çabalayıb, indii də beləldir.Və bütün şairlər, elə İbrahim Təbib də Yer üzündə baş verən bütün əksliklərin, ziddiyyətlərin səbəbini dünyada görür.Xalq yazıçısı Elçin "Klassik aşıq poeziyasında "Dünya" obrazı" monoqrafiyasında yazır:



"Dünyanın mürəkkəbliyi, ziddiyyəti, çoxmənalılığı klassik aşıq poeziyasında əsrlərdən əsrlərə keçən ana xətlərdən biridir və həmin fikrin son dərəcə yığcam və elə bilirəm ki, son dərəcə də yüksək poetik ifadələrindən biri qoca Yunis İmrəyə məxsusdur: "Dünya axirət əkini, Əkib götürən bilir". Elçin müəllim Xəstə Qasımın Dünya rədifli bir gəraylısından da misal gətirir, həmin misalı burada xatırlayaq:

**De görüm, nəyə talibsən,**
**Dərsini kimdən alıbsan?**
**Neçə min yol boşalıbsan,**
**Neçə min yol dolan dünya.**

**Xəstə Qasım qalıb naçar,**
**Bu sirri bəs kimlər açar?**
**Gələn qonar, qonan köçər,**
**Hey salarsan talan dünya.**

Diqqət yetirir və görürük ki, İbrahim Təbibbin poemasında da eyni ruh hakimdir. Hər bir insan özü balıcı bir dünyadır və belə götürsək, böyük dünya elə insan aləmidir.

Poemanın sonu nikbir misralarla bitir və Səməd Vurğunun "Biz gəldi gedərik, sən yaşa dünya" misrasındakı fikirlə səsləşir:

**Yaşadıq...Yaratdıq...biz qoca dünya!**
**Ömrümü vururam mən başa dünya!**
**Dəyişldir dünyamı...Sən yaşa dünya!**
**Mənim özüm, canım, gözüm dünyadı!**
**Deyilməmiş şirin sözüm dünyadı!**

İbrahim Təbib klassik şeirin və aşıq poeziyasının iki janrına-rübaiyə və bayatılara da müraciət edib. Məlumdur ki, rübai klassik poeziyada çox işlənib.

Ömər Xəyyamın, Məhsəti Gəncəvinin, Füzulinin, Nəsiminin, Xətainin rübai janrında yazdığı şeirlərdə (rübair dörd misradan ibarətdi) fəlsəfi fikirlər, dərin mənalar əxz olunur. Bəzən bir böyük şeirdə ifadə edilməli fikir dörd misralıq rübaidə öz təcəssümünü tapır.İbrahim Təbibin rübailəri də həmin ənənəni davam etdirir.Hiss olunur ki, İbrahim Təbib bu rübailəri yazana qədər çoxlu rübailər oxumuşdur. Rübaidə şair üçün mövzu məhdudluğu yoxdur. Şair hər bir hadisədən yaza bilər, onu düşündürən məsələlərə öz münasibətini bildirmək istəyər, ancaq bir şərtlə ki, bu rübaidə məzmun olsun, həm də şeiriyyət olsun, məna ilə hiss, duyğu birləşsin.

**Bilikdir insanı göyə qaldıran,**
**Bilikdir göylərdən xərac aldıran.**
**Biliklə yaratdı Tanrı dünyanı**
**Bilikdir insana zəfər çaldıran!**

**Nə çoxdur dünyada eşqini danan,**
**Nə çoxdur sevdanın yolundan dönən.**
**Şama od vurmasan o, heç yanarmı?**
**Ürəkdir eşqdən alovsuz yanan!**

**Meyvəsi olmayan bağ nıyə lazım?**
**Çeşməsi olmayan dağ nəyə lazım?**
**Dünyanın qədrini bilməyən nadan,**
**Yığ dünya malını, yığ, nəyə lazım?**

İbrahim Təbibin bayatılarında da sanki xalq bayatıları kimi sevilən nümunələr var. "Təbriz bayatıları"nda 624 bayatı toplanıb. Bu bayatıların həmısı Azərbaycanın qədim şəhəri, qəhrəmanlar və şairlər yurdu Təbrizə sevgilərlə aşılanır. O Təbriz ki, uzun illər ora gediş-cəliş olmayıb. Amma indi Təbrizə yollar da, könüllər də açıq.

**Təbrizin quücağında,**
**Yanaram ocağında.**
**Mənə candan əzizdir,**
**Hər küncün, bucağın da.**

**Təbrizdə duman qalmaz,**
**Çən qalmaz, duman qalmaz.**
**Həsrətlə yaşayanda,**
**Din qalmaz, iman qalmaz.**

"Türk oğlu türkəm" kitabında isə türkçülük, türk dünyasına məhəbbət izhar olunur.

**Əqidəm, amalım var,**
**Əqlim var, kamalım var,**
**Mustafa Kamalım var,**
**Türk oğlu türkəm!**

Poemada türkün ulu rəhbəri, onun dövlətinin yaradıcısı Mustafa Atatürkə böyüe sevgilər, şəfqətlər ifadə olunur. "Türkün zəfər bayrağı, Atatürkdür, Atatürk, türkün ümid çırağı, Atatürkdür, Atatürk!"

**İbrahim Təbib indii dünyada yoxdu. Amma onun şeirləri yaşayır, oxuyanlar bilir ki, bunlar öz vətənini, millətini, ədəbiyyatını sevən bir insanın ürəyindən qopub gələn misralardır.**

Ədalət.- 2020.- 10 yanvar. S. 6.